| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HIST210, Qədim Dünya Tarixi- 2, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Orxan Zamanov |
| | **E-mail:** | orkhan.zamanov@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | Müəllimin təyin etdiyi vaxtda |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **A. Əsas:**<br>1. Mühazirə mətnləri*<br>**2. Mehdi İrəvanski (Erivanski). Qədim Yunanıstan Tarixi. Bakı, 1963.**<br>**3. Yusif Həsənov. Qədim Roma Tarixi. Bakı, 1975.**<br>4. Həsən Həsənov. Makedoniyalı İsgəndər və Atropat. Bakı, 2017, 297 s.<br>5. Telman Orucov. Qədim Roma: Qüdrətin qabarması və çiçəklənməsi. Bakı, 2008, 366 s.<br>6. Beynəlxalq münasibətlər tarixi (qədim dövr və orta əsrlər). L.Z.Qarayeva, Ş.T.Nuruzadə, Z.E.Məlikova. Bakı, 2018, 488 s. 87-251 səh.<br>**B. Əlavə:**<br>7. Кузищин В.И. История Древней Греции. Москва, 2001, 2005.<br>8. Кузищин В.И. История Древнего Рима. Москва, 1981, 2000, 2005.<br>9. Банников А.В. Римская армия от Адрианополя до «Стратегикона». СПб., 2019. 192 с.<br>10. Tofiq Mustafazadə. Ümumi tarix. I kitab, Bakı, 1995, 2009, 175 s. 91-174 səh.<br>11. Tərlan Novruzov. Qədim Dünya ədəbiyyatı tarixi. Bakı, 2003. 584 s. 262-574 səh.<br>12. Qədim Dünya mədəniyyəti. İ.Hüseynov, N.Əfəndiyeva. Bakı, 2009. 427 s. 343-415 səh.<br>13. Сравнительное изучение цивилизаций: Хрестоматия. Москва, 1999, 556 с.<br>14. Понтинг, К. Всемирная история. Новый взгляд. Москва, АСТ: Астрель, 2010, 958 с. 198-313 стр.<br>* Mühazirə mətnləri Кузищин В.И. История Древней Греции. 2001, 2005., | |

| | | | |
|---|---|---|---|
| | Кузищин В.И. История Древнего Рима. 1981, 2000, 2005., История человечества, том 2-3., Клайв Понтинг Всемирная история. Новый взгляд, Йоханннес Ирмшер, Ренате Йоне, Словарь античности, ред. Кузищин В.И., Блаватская Т. В. Ахейская Греция во II тысячелетии до н.э., Кругликова И. Т. Античная археология kitablarının bazasında hazırlanılır. Mövzu üzrə əlavə ədəbiyyat dərs zamanı tövsiyə olunacaq. | | |
| **İnternet resursları** | **http://www.ebooks.az/category_history.html, http://history.az/ http://www.tarix.gov.az/books.php,** | | |
| **Kursun təsviri** | "Qədim Yunanıstan və Roma tarixi" başlıca universitet kurslarından biri olan "Qədim Dünya tarixi"nin ayrılmaz tərkib hissəsidir. Fənnin əsasını ilk dövlətlərin yaranması, yüksəlişi və tənəzzülü tarixi təşkil edir. Məhz dövlətçilik fonunda Qədim Qərbin cəmiyyətləri, mədəniyyəti və irsi tədris olunur. | | |
| **Kursun məqsədləri** | Məqsəd tələbələrə "Qədim Yunanıstan və Roma tarixi" fənni çərçivəsində Avropa ölkələrinin siyasi-hərbi və ictimai-iqtisadi məsələlərinin, mədəni və etnik durumun səciyyəsi baxımından tarixi, ümumi, yerli və regional cəhətdən bu ölkələr barədə təsəvvür yaratmaq, həmçinin "Qədim Qərb" mədəniyyətinin dünya və Şərq sivilizasiyasına təsiri problemi və ümumşərq tarixi çərçivəsində tarixi Azərbaycanın yeri məsələsinə aydınlıq gətirməyə imkan verməkdən ibarətdir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:**<br>• Qədim Yunanıstan və Roma tarixi haqqında ümumi məlumat;<br>• Qədim Avropa ölkələrinin dövlətçiliyi, təsərrüfatı, mədəniyyəti və siyasəti;<br>• Qədim Yunanıstan və Roma mədəniyyətinin çoxcəhətli inkişafı və onun dünya mədəniyyətinə təsiri.<br>• Qədim Yunanıstan və Roma tarixi ilə tarixi Azərbaycanın əlaqələri.<br>• Qərb sivilizasiyasının yaranması və onun orta əsr və çağdaş Avropa və dünya mədəniyyətinin meydana çıxmasındakı rolu ilə bağlı biliklər formalaşacaqdır. | | |
| **Tədris metodları** | **Mühazirə** | **X** | |
| | **Qrup müzakirəsi** | **X** | |
| | **Praktiki tapşırıqlar** | **X** | |
| | **Praktiki məsələnin təhlili** | **X** | |
| | **Digər** | **X** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%), bal** |
| | **Aralıq imtahanı** | **Aprel** | **30 bal** |
| | **Aktivlik/Yazılı tapşırıq** | **Semestr ərzində** | **6 bal** |
| | **Yoxlama yazı işi (quiz)** | **Mart ayının ilk həftəsi<br>May ayının ilk həftəsi** | **10 bal<br>(5+5)** |
| | **Layihə/Prezentasiya** | **May** | **6 bal** |
| | **Yazı işi/məqalə** | **Əlavə olunacaq** | **8 bal** |
| | **Final imtahanı** | **İyun** | **40 bal** |
| | **Yekun** | | **100 bal** |

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Yoxlama yazı işi**<br>Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzürlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini növbəti həftə yaza bilər. Kurs boyu bir yoxlama yazı keçirilməsi nəzərdə tutulur.<br>**Lahiyə/Prezentasiya**<br>Xəzər Universitetinin iştirak etdiyi layihədə aktiv fəaliyyət, eləcə də, fənn müəlliminin tərəfdaş olduğu elmi layihədə iştirak müvafiq bölmə üzrə tam bal təmin edir.<br>**Yazı işi/məqalə**<br>Fənn ilə bağlı seçmə mövzu ətrafında müstəqil elmi-kütləvi xarakterli məqalənin hazırlanmasındakı üstün bacarığına görə tam bal alır.<br>**Qeyd:** Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir.<br>Yazı işi/məqalənin təhvil verilmə tarixi müəllim tərəfindən elan ediləcək. Mövzular sillabusda qeyd edilib.<br>**Prezentasiya və məqalələrin tərtibi qaydaları**<br>Fənn ilə bağlı seçmə mövzu ətrafında müstəqil elmi-kütləvi xarakterli məqalənin hazırlanması zamanı aşağıdakılara diqqət yetirilməlidir:<br>- Məqalə (Təqdimatlar) mövzusu müəllim tərəfindən hazır plan ilə təqdim olunur (Əlavə N1). Tələbə mövzunun mahiyyətinə uyğun müstəqil ad seçməkdə sərbəstdir.<br>- Plagiat halları qəti qadağandır!<br>- Məqalə 12 şrift, TNR və 1 interval ilə tərtib olunmalıdır.<br>- Mütləq elektron nüsxə və illustrativ materiallar slayd şəklində müvafiq proqram təminatında yığılmalıdır.<br>- Məqalədə ən azı 8 şəkil və təqdimatda isə 5 slayd ola bilər.<br>- Məqalənin və ya Təqdimatın mətni çap edilərək təqdim olunmalı, slayd və elektron formatda olan nüsxə isə müəllimin elektron poçt ünvanına göndərilməlidir.<br>- Məqalə (Təqdimat) 8 bal ilə qiymətləndirilir. Məqalənin hazırlıq qovluğuna slayd şəkilli təqdimat əlavə olunsa və yüksək səviyyədə hazırlıq nümayiş etdirən tələbələr tam balı ala biləcəklər.<br>- Məqalə (Təqdimat) AAK-nın və ya rəsmi qəbul olunmuş istinadlanma ilə müşayət olunmalı, istifadə olunmuş mənbə və qaynaqlar dərs vaxtı auditoriyada nümayiş olunmalıdır.<br>- Hər bir tələbə fərdi şəkildə məqalə tərtib etməlidir. Məqalə başlığı və tərtib qaydaları Xəzər Universitetinin elmi jurnallarından olduğu kimi həyata keçirilməlidir və 5 A4 vərəqindən artıq olmamalıdır. Şəkil və cədvəllər məqalənin sonunda verilməlidir.<br>Təqdimatların ilk slaydına mövzunun adı verilməli və tələbənin adı, soyadı, ixtisası yazılmalıdır. Təqdimatın genişlənməsindən əvvəl - _____*.ppt, tələbənin |

| | |
|---|---|
| | ingilis şrifti ilə adı və təvəllüdü yazılmalıdır. Təqtimatdakı yazılar 12 şrift, TNR və 1 interval ilə tərtib olunmalıdır. Mütləq elektron nüsxə və illustrativ materiallar slayd şəklində müvafiq proqram təminatında yığılmalıdır. Minimum 8 şəkil və 5 slayd ola bilər. Təqdimatın mətni çap edilərək təqdim olunmalı, slayd isə müəllimin elektron poçt ünvanına göndərilməlidir. Təqdimata yüksək səviyyədə hazır olan tələbələr müvafiq tam balı ala bilir.<br>**Sivilizasiyalar tarixi fəninindən məşğələ (tapşırıq) ilə bağlı qeydlər.**<br>1) Yuxarıdakı proqramdakı mövzulara kurs boyu şifahi cavab verilməli və tövsiyyə olunmuş yerli və xarici dildə olan ədəbiyyatlardan istifadə olunmalıdır. Tələbə məşğələ zamanı mövzunu aydın izah etməli, sual-cavabda fəal olmalı və faydalandığı mənbələri əsaslandırmalıdır.<br>2) Dərs zamanı müxtəlif ədəbiyyatlardan istifadə etməsini təsdiqləyən qeydlər, mənbənin sürəti və ya kitabxanadakı inventarlaşma məlumatları olan tapşırıq dəftəri olmalıdır.<br>3) Məşğələ zamanı fəal olan tələbələr aktivlik balı ilə qiymətləndirirlər. Aktivlik 6 baldır və hər dərs hazır olan tələbə sonda ən yüksək balı ala bilir.<br>**İmtahanlar.**<br>Aralıq imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar)<br>Mövzular: Giriş, Qədim Yunanıstan.<br>Final imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar)<br>Mövzular: Qədim Roma və Antik dövr sivilizasiyaları.<br>Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir.<br>Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>**İmtahan qaydalarının pozuntuları.**<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması, imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası.**<br>Universitetin qaydalarına uyğun olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 və daha çox hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbənin davranış qaydaları.**<br>Dərs zamanı dərs prosesini pozmaq və qeyri-etik hərəkətlər etmək, yersiz və icazəsiz müzakirələr aparmaq, mobil telefondan, dinləyici qurğu və radiodan istifadə etmək, həmin dərsə aid olmayan digər fəaliyyətlə (kitab oxumaq, yazmaq, şəkil çəkmək və s.) məşğul olmaq qadağandır.<br>**Aktivlik**<br>Tam aktivlik balı dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi məşğələlərdə fəal iştirak edən tələbələrə verilir. Xəzər Universitetinin iştirakçısı olduğu layihədə aktiv fəaliyyət aktivlikdə nəzərə alınır. |

| | |
|---|---|
| | **Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbə müəyyən üzrlü səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərdə iştirak edə bilmirsə, o zaman bu haqda fakültə dekanlığına məlumat təqdim etməlidir. Fənn üzrə ümumi dərs saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/ Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | **.02.26**<br><br>**.02.26** | **Mövzu 1. Giriş.**<br>Qədim Yunanıstan və Roma tarixi fənninin proqramı, mövzusu, predmeti və vəzifələrilə tanışlıq. Antik sivilizasiya və dövr anlayışı, onların mahiyyəti. Qədim Avropa ölkələrinin təbii-coğrafi şəraiti. Aralıq dənizi hövzəsi ölkələri, Balkanlar və Appeninlərin təbii-coğrafi şəraiti.<br>**Mövzu 2. Qədim Yunanıstan (Ellada).**<br>Qədim Yunan (Ellin) sivilizasiyası, onun meydana çıxması, coğrafi-xronoloji çərçivəsi və nailiyyətləri. Qədim Yunanıstanın tarixi inkişaf xüsusiyyətləri və dövrləşmə problemi. Qədim Yunanıstanın araşdırılması tarixi, ümumdünya tarixində yeri və öyrənilmə səbəbləri. | A 1,2<br>B 7,12<br><br>A 1,2<br>B 7,9,12 |
| 2. | **.02.26**<br><br>**.02.26** | **Mövzu 3. Qədim Yunanıstan.**<br>Qədim Yunanıstanın ərazisi, əhalisi və təsərrüfatı. Qədim Yunanıstanın etnik və dil mənsubiyyəti məsələsi. Qədim Yunanıstan haqqında mənbələr və tarixşünaslığı.<br>**Mövzu 4. Qədim Yunanıstanda erkən tunc dövrü.**<br>Yunanıstan e.ə. IV-III minilliklərdə. Krit və Axey dövlətçiliyin meydana gəlməsi. Yunan adaları və materik Yunanıstanı e.ə. II minillikdə. Egey hövzəsində erkən sivilizasiyalar. Minoy və Miken dövrü. | A 1,2<br>B 7,9,12<br><br>A 1,2<br>B 7,9,12 |
| 3. | **.02.26**<br><br>**.02.26** | **Mövzu 5. Qədim Yunanıstan orta tunc dövründə.**<br>Egey hövzəsində orta tunc dövrü cəmiyyətlərinin inkişafı və Axey Yunanıstanının siyasəti. E.ə. III-II minilliklərdə Elladanın iqtisadi inkişafı, hərb işi və müharibələri.<br>**Mövzu 6. Qədim Yunanıstan son tunc dövründə.**<br>Axey şəhər dövlətlərinin yüksəlişi, xarici və daxili siyasəti. E.ə. I minillikdə Elladanın iqtisadi və mədəni durumu. Miqrasiyalar və “Dəniz xalqları”, “Qaranlıq əsrlər” və tunc dövrü sivilizasiyalarının Şərqi Aralıq dənizi hövzəsində çöküşü və süqutu problemi. Yunanıstan e.ə. XI-IX | A 1,2<br>B 7,9.12<br><br>A 1,2<br>B 7,9,12 |

| | | | |
|---|---|---|---|
| | | yüzilliklərdə, tunc dövründən dəmir əsrinə keçid, təsərrüfat və dövlətçiliyin durumu. Homer dövrü. | |
| 4. | **05.03.26**<br><br>**06.03.26** | **Mövzu 7. Arxaik Yunanıstan, e.ə. VIII-VI yüzilliklər.** Nəsli icmanın tənəzzülü və Yunan quldar polis-dövlətlərin yaranması. Polis sisteminə keçidin başlanması. Qədim Sparta və oliqarx polisi. Qədim Attikada demokratik polisin formalaşması. Quldar demokratiyasının bərqərar olması, Afinanın yüksəlişi. E.ə. I minilliyin əvvəllərində Yunanıstanın hərbi-siyasi və beynəlxalq vəziyyəti. Yunan kolonizasiyası.<br>**Mövzu 8. Qədim Yunanıstan klassik dövrdə.** Qədim Yunanıstanın e.ə. VI-V yüzilliklərdə beynəlxalq vəziyyəti və İran Əhəməni təhlükəsi. Yunan-İran (Fars) müharibəsi (e.ə. 499-449-cu illər). Klassik Yunanıstanın hərb işi və döyüş sənəti. Yunan falanqası və hoplit qoşunu. Müharibənin ölkənin ictimai-iqtisadi və mədəni-siyasi inkişafına təsiri və rolu. Kiçik Asiyada yunan koloniyaları müharibə vaxtı və sonrası. Kalli sülhü. | A 1,6<br>B 7,9,12<br><br>A 1,2,6<br>B 7,9,12 |
| 5. | **12.03.26**<br><br>**13.03.26** | **Mövzu 9. Qədim Yunanıstan e.ə. V-IV yüzilliklərdə.** Afina quldar polisi, demokratiya və siyasi rejim. Periklin ictimai və mədəni siyasəti. Afinanın e.ə. V-IV yüzilliklərdə xarici siyasəti, Peloponnes müharibəsi (e.ə. 431-404-cü illər) və onun nəticəsi. Polis sisteminin e.ə. IV yüzilliyin birinci yarısında böhranı, hegemonluq uğrunda mübarizə, Makidoniya monarxiyasının yüksəlişi.<br>**Mövzu 10. Qədim Yunanıstan mədəniyyəti e.ə. VIII – IV yüzilliklərdə.** Qədim yunan mədəniyyətinin inkişaf xüsusiyyətləri və xarakterik cəhətləri. Antik mədəniyyətin yaranmasının əsas şərtləri. Yunan mifologiyası və dinin inanc sistemi. Qədim Yunanıstanın maddi mədəniyyəti (memarlıq, incəsənət, heykəltəraşlıq). Yunan ədəbiyyatı və teatrı. Fəlsəfi və elmi biliklər (Fəlsəfi məktəblər, tarixçilik və elmlərin sistemləşdirilməsi). Qərb sivilizasiyasının meydana gəlməsi və yüksəlişində Qədim yunan mədəni irsinin əhəmiyyəti. | A 2,6<br>B 7,9,12<br><br>A 2<br>B 7,10,11 |
| 6. | **19.03.26** | **Mövzu 11. Qədim Yunanıstan Makedoniya istilası dövründə. Qədim Makedoniya e.ə. V-IV yüzilliklərdə.** Makedoniya çarlığının yüksəlişi. Qədim Makedoniyanın e.ə. V yüzillikdə fars istilasına qarşı siyasi-hərbi mübarizəsi. Makedoniya padşahlığının çar IV Filipp dövründə yüksəlişi və yunan şəhər dövlətlərin beynəlxalq vəziyyəti. Makedoniya çarlığının hegemonluğu və III İskəndərin hakimiyyəti. Qədim Yunanıstanın Böyük İskəndər tərəfdən | A 1,2,4<br>B 7,9,12 |

| | | | |
|---|---|---|---|
| | **20.03.26** | Şərq yürüşünə qatılması. Makedoniyalı İskəndərin Şərq yürüşü, onun tarixi rolu, Yaxın və Orta Şərqdə makedon-yunan istilası və Ellinizm dövrünün başlanması. Makedoniya imperiyası dövründə Qədim Yunanıstanın iqtisadi və mədəni yüksəlişi.<br>**Mövzu 12. Qədim Yunanıstan Ellinizm çağında.**<br>Böyük İskəndərin imperiyasının süqutu və yeni siyasi-hərbi nizam. Yaxın və Orta Şərqdə Ellinizm və Makedon-Ellin dövlətlərinin hegemoniyası. Ellin dövlətlərinin hərbi siyasəti və beynəlxalq durumu. Selevkilərin və Ptolomeylərin yüksəlişi. Qədim Yunanıstanda Ellinizm dövründə siyasi vəziyyət. Sparta və "Böyük Yunanıstan". Ellinizm dövrünün səciyyəsi, onun əlamətləri və şərq xalqlarına, eləcə də, Azərbaycana təsiri. Ellinizm mədəniyyəti. | A 1,2,4,6<br>B 7,9,11 |
| 7. | **26.03.26** | **Mövzu 13. Qədim Roma giriş.**<br>Qərbi Aralıq dənizi hövzəsi tarixöncəsi dövrdə. Appenin yarımadasının coğrafi mövqeyi və təbii şəraiti. Appenin yarımadasında demoqrafik durum, əhali və etnik tərkib, miqrasiyalar və Etruskların mənşəyi problemi. Qədim Roma tarixinin öyrənilməsi, mənbə korpusu və tarixşünaslıq. Tarixi İtaliyada ən qədim və qədim dövr. **(YOXLAMA)** | A 1,3,5<br>B 8,9,12 |
| | **Aralıq imtahanı** | | |
| 8. | **27.03.26**<br><br>**09.04.26** | **Mövzu 14. Qədim Roma erkən sinifli cəmiyyət dövründə.**<br>Erkən quldarlıq cəmiyyətinin və dövlətçiliyin meydana gəlməsi, Etrusk şəhər dövlətləri (Etruriya), "Böyük Yunanıstan" və Pompey şəhər dövləti, Latın tayfalarının məskunlaşması və digər italik tayfaları. Roma şəhərinin meydana çıxması, Qədim Romada "padşahlıq dövrü" və Appenin yarımadasının əhalisinin təsərrüfatı. Romanın və Qərbi Aralıq dənizinin ticarətində rolu. Latın əlifbası.<br>**Mövzu 15. Qədim Roma və Etruriya.**<br>Qədim Romada sinfi və silki mübarizə. E.ə. V-III yüzilliklərdə Qədim Romanın xarici siyasəti. Romanın respublikaya çevrilməsi. Etruriyanın işğalı. Yunan və Etrusk mədəniyyətinin erkən Roma mədəniyyətinə təsiri və onun formalaşması. Romada ictimai mübarizə, patrisilər və plebeylər. | A 1,3<br>B 8,9<br><br>A 1,3<br>B 8,9 |
| 9. | **10.04.26** | **Mövzu 16. Qədim Roma, Karfagen dəniz səltənəti və Yunan şəhər dövlətləri e.ə. IV-III yüzilliklərdə.**<br>Epir çarlığının yürüşləri. Pirr ilə müharibə və Ellin dünyası ilə münasibətlər. Roma respublikasının e.ə. III yüzillikdə beynəlxalq münasibətlərə təsiri və Qədim dövlətlərlə | A 1,3,5,6<br>B 8,9,12 |

| | | | |
|---|---|---|---|
| | 16.04.26 | əlaqələri. Qonşu xalqlara qarşı yürüşlər. Karfagen dövləti və Makedoniya çarlığı. Qədim Romanın Qərbi Aralıq dənizi uğrunda Karfagen dəniz səltənətilə mübarizəsi, Birinci Pun müharibəsi və onun nəticəsi. Karfagenin revanş siyasəti, ikinci Pun müharibəsi, onun gedişatı və Karfagenin siyasi və hərbi iflası, müharibənin sonu.<br>**Mövzu 17. Qədim Roma, Karfagen və Makidoniya dövlətləri e.ə. II yüzillikdə.**<br>Qədim Romanın Şəqri Aralıq dənizi ekspansiyası, Balkanlara müdaxilə və Makedoniya savaşları. Qərbi Aralıq dənizində hegemonluq və III Pun müharibəsi, Karfagenin süqutu. Ellinist dövlətlərlə münasibətlərin gərginləşməsi, Suriya müharibəsi və Romanın Şərqi Aralıq dənizi məsələlərinə geniş müdaxiləsi. Yunanıstanın işğalı. Qədim Romanın e.ə. II-I yüzilliklərdə ictimai-iqtisadi münasibətləri. | A 1,3,5,6<br>B 8,9,12 |
| 10. | 17.04.26<br><br>23.04.26 | **Mövzu 18. E.ə. II yüzilliyin sonu – I yüzilliyin əvvəlində Qədim Roma dövləti.**<br>Roma respublikasında siyasi mübarizə. Daxili və xarici siyasət məsələləri. Şərq əyalətlərində Roma əleyhinə hərəkatlar, Palmira və İudeya. Sullanın diktaturası. Qulların vəziyyəti, sosial-ictimai durum, Spartak üsyanı.<br>**Mövzu 19. E.ə. I yüzilliyin sonu – eramızın I yüzilliyin əvvəlində Qədim Roma dövləti və imperiyası.**<br>Romada siyasi sistemin böhranı və respublikanın süqutu. Siyasi qruplar arası mübarizə, Mari və Sulla, Pompey və Sezar. I və II Triumviratlar, vətəndaş müharibəsi, Mark Antoni və Oktavian Avqust. Roma imperiyasının e.ə. I yüzillikdə xarici siyasəti, Parfiya Arşakilər çarlığının yaranması və yüksəlişi. Romanın Avropa yürüşləri, Qalliya və Britaniyanın işğalı. Romanın Aralıq dənizi səltənətinin yaranmasından, Avropanın ilk istilaçı qitə imperiyasına çevrilməsi, Parfiya çarlığı ilə mübarizə və beynəlxalq vəziyyəti. Parfiya səltənətinin yaranması ilə Yaxın və Orta şərqin geosiyasi qarşıdurma meydanına çevrilməsi. Romalıların siyasi-hərbi və ictimai-hüquqi uğurları. Misir və Mesopotamiya uyğunda mübarizə. Roma imperiyasının yüksəlişi və onun mədəniyyəti. | A 1,3,5,6<br>B 8,9,12<br><br>A 1,3,5,6<br>B 8,9,11 |
| 11. | 24.04.26<br><br>30.04.26 | **Mövzu 20. Qədim Romada erkən imperiya dövrü.**<br>Oktavian Avqustun prinsipatı. Roma imperiyası Yuli-Klavdilər sülaləsi və Flavilər zamanında. İmperiya atributikasının formalaşması, əzəmətli memarlıq və imperatorluq institutu.<br>**Mövzu 21. Roma imperiyası klassik dövründə**. | A 1,3,5<br>B 8,9,10,11<br><br>A 1,3,5,6 |

| | | | |
|---|---|---|---|
| | | Eramızın II yüzilliyində Roma imperiyası “Qızıl əsr” mərhələsində. Antonilər sülaləsinin hakimiyyəti. Daxili və xarici siyasət. Parfiya-Roma savaşları. Trayanın hakimiyyəti, Roma imperiyasının sərhədlərinin ən genişləndiyi dövr və hərbi qüdrətin zirvəsi. | B 8,9,12 |
| 12. | **07.05.26**<br><br><br><br><br>**08.05.26** | **Mövzu 22. Qədim Roma mədəniyyəti və ictimai-siyasi inkişafı eramızın I-II yüzilliklərində.** Qədim Roma mədəniyyəti – memarlıq, heykəştəraşlıq, ədəbiyyat, fəlsəfə, incəsənət, mədəni həyat. Dini cərəyanlar və şərq inanclarının imperiyaya yayılması. Xristianlığın meydana çıxması və yayılması. Elmi fikir və tarixçilik.<br>**Mövzu 23. Qədim Roma eramızın III yüzilliyində böhran dövründə.** Quldarlıq cəmiyyətinin və dövlətinin böhranı. Roma imperiyasında sülalə dəyişikliyi. Severlər sülaləsi və “Əsgər imperatorlar”. Xristianlığın genişlənməsi və təkamülü. Şərqdə yeni təhdid, Sasanilər sülaləsi və Roma-İran (Sasani) savaşlarının başlanması. Qalliyada üsyanlar. | A 3,5<br>B 8,10,11<br><br><br><br>A 3,5<br>B 8,9,12 |
| 13. | **14.05.26**<br><br><br><br><br><br><br>**15.05.26** | **Mövzu 24 Qədim Roma son imperiya dövründə.**<br>Roma imperiyası eramızın IV yüzilliyndə. İmperator Diolektian və Konstantinin hakimiyyəti dövrləri. Dini etiqad və dini islahatlar. Dominat sistemi. Klassik qərb quldarlığının tənəzzülü. Roma imperiyasının Qərbi Roma və Şərqi Roma (Bizans) imperiyalarına bölünməsi. Bu imperiyaların fərqli tarixi inkişaf yollarına keçməsi. İmperator Feodosinin ölümündən sonrakı vəziyyət.<br>**Mövzu 25. Qədim Roma imperiyanın bölünməsindən sonrakı dövrdə.**<br>Qərbi Roma imperiyasında imperator Feodosinin hakimiyyətindən sonrakı vəziyyət. Barbarların imperiya hüdudlarına soxulması, “Xalqların Böyük Köçü” dövründə imperiyanın durumu, şərqdən gələn təhlükənin genişlənməsi, Avropa hunları və onların işğalları. Avropa Hun İmperiyası və digər Avropa xalqları Roman Dünyasının (Pax Romana) tənəzzülü dövründə. Şərqi Roma imperiyası, onun sosial-iqtisadi və hərbi-siyasi durumu. “Bizans”ın Şərq sivilizasiyası ilə əlaqələri, tarixi yeri və rolu. Xristianlığın rəsmi dinə çevrilməsi və xristian kilsəsi. Kilsə və papalıq institutunun meydana çıxması və təkamülü. Klassik quldarlıq quruluşunun dağılması və qulların vəziyyəti. | A 3,5<br>B 8,9,12<br><br><br><br><br><br>A 3,5,6<br>B 8,9,12 |
| 14. | **21.05.26** | **Mövzu 26. Qədim Roma quldar imperiyanın süqutu və feodalizmə keçid dövründə.**<br>Hun səltənəti və Atilla. Sasani dövləti və Şərqi Roma imperiyası. Qərbi və Şərqi Roma imperiyalarının Hun tayfa | A 3,5,6<br>B 8,9,12 |

| | | | |
|---|---|---|---|
| | **22.05.26** | ittifaqının basqınlarına qarşı mübarizəsi və Katalaun döyüşü. Hun dövləti ilə mübarizə və müvəffəqiyyətlər. Avropada erkən feodal cəmiyyəti və dövlətçilik. Alman (German) tayfaları və Roma. Qərbi Roma imperiyasına qotların müdaxiləsi və Romanın 410-cu ildə istilası. Roma əyalətlərində barbar krallıqlarının yaranması. Vandal-Alan krallığının 455-ci ildə Roma şəhərini tutaraq qarət etməsi. İtaliyada barbar tayfalarının hegemonluğu, 476-cı ildə Qərbi Roma imperiyasının ləğvi və quldar imperiyanın süqutu. Qərbi Avropada yeni tarixi mərhələnin başlanması.<br>**Mövzu 27. Şərqi Roma imperiyasının er. I minilliyinin II yarısında yüksəlişi.**<br>Bizansda imperator hakimiyyəti. Konstantinopolun qüdrətinin artması və Bizansın işğalçı yürüşləri. İctimai-iqtisadi durum və beynəlxalq vəziyyət. Bizans dövlətinin hərbi uğurları və xarici siyasəti. Şərqi Roma imperiyasının barbar dövlətləri: Lanqobard, Vestqot, Vandal-Alan və Franklar ilə münasibətləri. Aralıq dənizi adalarında və sahillərində Bizansın istilaları. Bizansda feodal dövlətinin təşəkkülü məsələsi. | A 1,6<br>B 8,9,12 |
| 15. | **28.05.26**<br>**29.05.26** | **Mövzu 28. Qədim Roma mədəniyyətinin və dövlətçilik irsinin tarixi əhəmiyyəti və təsiri. Antik dövr sivilizasiyaları.**<br>Latın yazı sistemi və roma rəqəmləri. Yunan-Roman fəlsəfəsi və ədəbiyyatı. Xristianlıq və xristian kilsəsi. İncəsənət və memarlıq. Roma sülhü və Roman Dünyası anlayışları. Roma hüququ və hüquq sistemi. Roma hərb sistemi və onunla bağlı hərb ənənəsi. Antik dövrün digər sivilizasiya sistemləri və Avrasiyadan kənar sivilizasiyalar (Antik dövrdə Afrika və Amerika qitələri).<br>**(YOXLAMA)** | A 1,3<br>B 8,10,11 |
| 16. | | **FİNAL İMTAHANI (14-28-ci mövzular)** | |

**Əlavə N1 Mövzular**

1) Yunan yazısı (yaranması, yayılması və araşdırılması tarixi)
2) Latın yazısı (yaranması, yayılması və araşdırılması tarixi)
3) Ellada: etimoloji və terminoloji baxımdan (dili, yazısı, mədəniyyəti, incəsənəti, xalqı və ölkəsi)
4) Ellin mədəniyyəti
5) Troya şəhəri (meydana çıxma və tədqiq tarixi)
6) Sparta\Sparta çarlığı (siyasi-hərbi və sosial-mədəni inkişafı)
7) Etrusklar\Etrusk dili, çarlığı və xalqı (tarixi, ictimai və siyasi yeri)
8) Pompey şəhəri və qazıntısı (tarixi-arxeoloji və tarixşünaslıq baxımından)

9) "Dəniz xalqları" (tarixi və siyasi fenomen kimi)
10) "Hun imperiyası" (tarixi və mədəni fenomen kimi)
11) Koloniyalar: Antik\Qədim koloniyalar (erkən və yeni kolonializmin fərqli və oxşar cəhətləri)
12) Karfagen: ölkə, dil və xalq (tarixi, ictimai və siyasi yeri)
13) Kolizey və Roma memarlığı
14) Parfenon və Afina memarlığı
15) Qədim Yunanıstan və Roma (siyasi-hərbi və sosial-mədəni fərqlər və bənzərliklər)
16) Qədim keltlər və almanlar Roma ekspansiyası ərəfəsində
17) Qalliya: ölkə, dil və mədəniyyət
18) Qədim Krit
19) Yunan teatrı
20) Qədim Kipr
21) Britaniya: ölkə, əhali və dil
22) Samnitlər: xalq, dil və mədəniyyət
23) Qədim İtaliya romalılara qədər
24) Bizans Romanın varisi kimi
25) Qədim Azərbaycan və Antik mədəniyyət
26) Qədim Afrika və Yunan dünyası (sivilizasiyalar arası əlaqələr, təsirlər və mənimsəmələr)
27) Qədim Qafqaz və Ellinizm (coğrafi və etnik arealı, mədəni və sosial inkişafı, siyasi-hərbi və beynəlxalq durumu)
28) Qədim Amerikada siyasi qurumlar
29) Roma sülhü və Roman dünyası problemi müasir tarix və siyasət elmlərində
30) Erkən və Qədim Türk dünyası və Antik sivilizasiya
31) Olimpiya oyunları və ellinlərin digər dini-ictimai tədbirləri (İstmin, Pifiad, Nemey, Panafiney və Dionisiy)
32) Afina təqvimi və qədim Yunanıstanda il hesabı
33) Qədim Yunanıstan bayramları
34) Antik yunan müəllifləri və onların əsərlərinin tarix elmi üçün əhəmiyyəti
35) Antik roma müəllifləri və onların əsərlərinin tarix elmi üçün əhəmiyyəti
36) Yunan panteonu
37) Qədim Yunanıstan tarixinin dövrləşməsi problemi
38) Qədim Roma tarixinin dövrləşməsi problemi
39) Roma panteonu
40) Roma təqvimi
41) Qədim Roma bayramları və dini-ictimai oyunlar
42) Roma ölçü və say sistemləri, Roma rəqəmləri
43) Yunan və Roma sikkələri, ticarət ənənəsi və pul sistemləri
44) Roma imperatorları
45) Qladiator oyunları
46) Qədim Roma ordusu və legionerlər
47) Qədim Ellin ordusu və hoplitlər
48) "Barbar krallıqlar" və post-Roma dövrü

49) “Xalqların Böyük köçü” və son antik çağda qlobal miqrasiyalar
50) “Ellinist padşahlıqlar”sistemi və Yaxın Şərq xalqları antik çağda